# Azad olunmuş ərazilərin bərpasında özəl sektor da fəal olmalıdır

***Azərbaycanın işğaldan azad edilmiş ərazilərində bərpa-quruculuq işləri sürətlə davam etdirilir. Görülən işlər şəxsən Prezident İlham Əliyevin nəzarətindədir və hər dəfə rayonlara səfər edərkən o, inşası başa çatmış obyektlərlə tanış olur, açılışlarında iştirak edir, yenilərinin təməlini qoyur. Dövlət başçısı son vaxtlarda Ağdam və Ağcabədi rayonlarına səfəri zamanı da erməni vandalları tərəfindən dağıdılmış ərazilərimizin bərpası istiqamətində mühüm addımlar atdı. Bununla bağlı fikirlərini bölüşən Azərbaycan Dövlət İqtisad Universitetinin professoru Vəkil Hüseynov bildirdi:***



– Dövlət başçısı bu yaxınlardakı çıxışlarından birində bəyan etmişdi ki, son illərdə ölkəmizin valyuta ehtiyatları 2,5 milyard dollar artıb və vəsaitlərin əsas hissəsi ərazilərimizin, xüsusilə Qarabağ və Şərqi Zəngəzur bölgələrinin bərpasına yönəldilir. Təbii ki, bu istiqamətdə işlər də uğurla davam etdirilir. Prezident İlham Əliyev Ağdam və Ağcabədi rayonlarına səfəri zamanı da, həmişə olduğu kimi, yenicə istifadəyə verilən bəzi obyektlərin, o cümlədən “Azərenerji” Açıq Səhmdar Cəmiyyətinin 110/35/10 kV-luq “Ağdam-1” və “Ağdam-2” elektrik yarımstansiyalarının, “Qarabağ” Regional Elektrik Şəbəkəsinin Rəqəmsal İdarəetmə Mərkəzinin açılışlarında iştirak etdi. Bunlarla yanaşı, ölkə başçısı Ağdam Sənaye Parkında fəaliyyət göstərəcək alternativ və bərpa olunan enerji mənbələri ilə qidalanan işıq dirəklərinin və digər qurğuların, xalça istehsalı müəssisələrinin, “Park Forest Otel Ağdam” mehmanxanasının, 209 mənzildən ibarət yeni yaşayış kompleksinin, 210 çarpayılıq Ağdam Rayon Mərkəzi Xəstəxanasının təməllərini qoydu.

Azərbaycan lideri bildirdi ki, işğaldan azad olunmuş zonaların tezliklə yenidən qurularaq sakinlərin öz evlərinə qaytarılması prioritet vəzifə olaraq qalır. Bu məqsədlə həmin rayonlarda irimiqyaslı işlər görülür. Yeni infrastruktur yaradılır, elektrik stansiyaları tikilir, dəmir və şose yolları çəkilir. Şəhərlərarası yolların çəkilişi geniş vüsət alıb. Göygöldən Kəlbəcərə uzunluğu 11 kilometrdən çox olan tunel çəkilir. Kəlbəcərlə Laçın arasında 4 kilometr uzunluğu olan ikinci tunel inşa edilir. Bu, Kəlbəcərə Göygöl-Gəncə istiqamətindən getməyə və həm strateji, həm də vətəndaşların oraya qayıtması nöqteyi-nəzərindən bütün məsələləri həll etməyə imkan verəcək. Bərdə–Ağdam avtomobil yolu inşa edilir.

Prezident İlham Əliyev Talış və Suqovuşanla birləşdirilmiş Naftalanın beynəlxalq turizm mərkəzinə çevrildiyini, Ağdərə ərazisinin turizm mərkəzinə çevrilməsi üçün addımlar atıldığını qeyd etdi. Onun sözlərinə görə, son bir il ərzində Zəfər yolunun tikintisi başa çatdırılıb. Hazırda Füzuli–Hadrut, Füzuli–Cəbrayıl, Horadiz–Ağbənd, Zəngilan–Qubadlı–Laçın, Laçın istiqamətində əlavə yollar çəkilir. Dəmir yollarının çəkilişi davam etdirilir. Artıq Bərdə–Ağdam dəmir yolunun inşasına başlanılıb. Horadiz–Ağbənd–Zəngəzur dəhlizinin bir parçası olan dəmir yolu inşa edilir.

Azərbaycan lideri bildirdi: “190 hektar ərazidə qurulacaq Ağdam Sənaye Parkının ilk müəssisələri artıq bu sahədə ilk addımlarını atır. Bu, çox önəmli hadisədir. Ona görə ki, Ağdam şəhərinin gələcək inkişafı ilə bağlı planlarımızda, ilk növbədə, yaşayış binalarının inşası və iş yerlərinin açılması var. Çünki burada yaşayacaq ağdamlılar işlə təmin olunmalıdırlar. İş yerlərinin yaradılması ilə bağlı əlavə addımlar da atılacaq. Əminəm ki, yaxın gələcəkdə Ağdam Sənaye Parkında onlarla müəssisə işə başlayacaqdır. Azərbaycan iş adamlarına da mən bu gün burada – Ağdam Cümə məscidinin önündə çağırış edirəm ki, gəlsinlər həm Ağdama, həm də azad edilmiş bütün digər ərazilərə sərmayə qoysunlar, vəsait qoysunlar. Çünki bu gün Azərbaycanda biznes üçün, sahibkarlar üçün çox gözəl şərait yaradılıb.

Dövlət sahibkarları dəstəkləyir və həm mənəvi-siyasi dəstək verilir, eyni zamanda, güzəştli kreditlər verilir. Əlbəttə ki, bölgələrdə infrastruktur layihələrinin icrası sahibkarlıq üçün də gözəl imkanlar yaradır. Ona görə Azərbaycan sahibkarları gərək azad edilmiş torpaqlara gəlsinlər və burada müəssisələr qursunlar, iş yerləri yaratsınlar. Biz azad edilmiş torpaqları ancaq bu yolla tezliklə canlandıra bilərik. Əlbəttə, dövlət öz tərəfindən lazımi addımları atır və atacaq. Ağdam şəhərinin baş planı hazırlanıb, Baş plan əsasında işlər görülür. Əlbəttə ki, özəl sektorun nümayəndələri bu işlərdə fəal olmalıdırlar”.

***Paşa ƏMİRCANOV,***
***“Xalq qəzeti”***

Xalq qəzeti .- 2022.- 20 fevral.- S.6.